# JEVGENI ONEGIN

## (S. Vurqun joldaş tərəfindən tərçymə edilməkdə olan Puşkinin „Jevgeni Onegin“ əsərindən bir parca)

VIII.

Kim ki osanmajьr jyz gərənlikdən,
Hər sezy cejnəjir aqzьnda təkrar,
Coqdan inanьlmьş bir şejə bə'zən
Inandьrmaq ycyn onda həvəs var,
Ejni e'tirazь coq alьr dilə,
Hətta on yc jaşlь qьzlarda belə
Nə olmuş, nə olan e'tiqadь, bir
Xijalla ujdurub jьqmaq istəjir

Kim ki jorulmajьr qorqutmalardan.
Dualar, jəminlər olmazьn qorqu,
Altь səhifəlik kaqьz uzunu
Bir qejd, yzyklər jalan və bөhtan,
Ana nəzarəti, o gөz jaşlarь
Sonra da ərlərin aqьr rəftarь...

IX.

Bөjlə dyşynyrdy Jevgeni bilsən
Өmrynyn baxtijar və gənç zamanь.
Daşqьn ehtiraslar icində bə'zən
Başsьz şybhələrin oldu qurbanь.
Həjat əzizləjib pozmuşdu onu,
Birisi acmьşsa onun gөnlyny,
Başqa birisi də sьndьrmьş jazьq!
Arzьlar jorqunu olmuşdu artьq,
Bə'zən də asança myvəffəqijjət
Bьqdьrmьşdь onu, səsə, sykutə
Dalmьşdьr dəjynən qəlbi həmişə
Saxta gylyşlərlə qapamьş fəqət
Өz əsnəməsini. Iştə dynjada
Өmryndən səkkiz il vermişdir bada.

X.

Artьq gөzəllərə gөnyl verməjir
Bir təhər dolaşьb kecinir haman
Əjər rədd olunsa - hec inçiməjir
Xijanət etsələr - razьdьr çandan.
Dolanьr onlarla həvəssiz çansьz
Nəş'əsiz, səvgisiz və həjəçansьz
Sonrada tərk edir hajьfsьnmadan

Əşqi fənalьqь dujduqu zaman.
Iştə, təmənnasьz adi bir qonaq
Hər aqşam bujurub vist ojununa
Əjləşir. Qumarь jetirçək sona,
Həjətdən atlanьb gedir caparaq
Rahat juqlajьr sabaha qədər
Aqşam səfərini bilməjir səhər.

XI

Fəqət Tatjanadan sifariş alan
Anegin, titrəjib dəjyndy dərhal
Qьz xijalьndakь inçə bir lisan
Ojatdь onda da çanlь bir xijal;
Anьb Tatjananьn xoş visalьnь,
Solqun çamalьnь mə'jus halьnь,
Bytyn varlьqilə o daldь jenə
Şirin bir juqunun dərinlijinə.
Bəlkə də, əskimiş dujqularьnь
Jaşajьb onlara baqlandь bir an;
Fəqət istəmədi aldatsьn əl'an
Gynahsьz bir qəlbin e'tibarьnь
Ucaq bir baqa ki, gөryşyr orda

Bizim Aneginlə gөzəl Tatjana

XII.

Iki dəqiqəlik susdular jalьnьz
Jaqlaşaraq qьzьn janьna birdən
Anegin səjlədi: «Siz jazmьşdьnьz,
Inadcьl olmajьn. Oqudum da mən
Sadiq bir insanьn qəlb - safьnь
Gynahsьz bir əşqin e'tirafь
Səmimijjətiniz əzizdir mana;
Coqdan danьşmajan dujqularьma
Həjat və hərəkət verdi jenidən,
Budur qarşьsьnda verdijim baha,
Sizi tə'rifləmək istəjirəm mən
Өjləçə bojasьz bir e'tirafla
Myqəddəratьmь tapşьrьb sizə:
Өzymy verirəm məhkəmənizə.

XIII

Bir ata, bir joldaş olmaqьmla mən
Geniş həjatьmь daraltsam əjər,
Olursa qismətim өz tale'imdən
Evdəki gyndəlik və adi işlər,
Bir də ajilənin hər məhnətilə
Baqlansa qollarьm bir qьrьm belə:
Səvərdim o zaman tək sizi qəlbən,
Artьq aramazdьm başqasьnь mən,
Bulardьm o əski idealьmь,
Səjləjirəm acьq əşqinaməsiz:
Jeganə həmdəmi olardьnьz siz
Dərdli gynlərimin, dujub halьmь,
Gөzymdən dyşərdi başqa ne'mətlər
Bəxtijar olardьm baçaran qədər.

XIV.

Fəqət jaranmadьm bu çəlal ycyn
Mənim qəlbim hara, bu şejlər hara?
Sizin də arzular əbədir bytyn
Mən lajiq dəjiləm cynky bunlara.
Inanьn! (viçdanla dejirəm) sizə
Evlilik dərd olaçaq hər zaman bizə
Nə qədər səvsəm də sizi jyrəkdən,
Dərhal adətində dөnəçijəm mən,
Aqlьjaçaqsьnьz! O gөz jaşlarь
Qəlbimi ojnada bilməz jerindən
Jalnьz hirsləndirib kysdyrər birdən
Imdi siz өzynyz kəsdirin barь.
Bizimcin Gimenej *) nə gyn veraçək?
Bu gynlər bəlkə də uzun syrəçək.

XV.

Nə var bu dynjada bundan da jaman
Ki, өz kyflətində zavallь zevçə
Ləjaqətsiz olan ərin uçundan
Geçəli, gyndyzly dərdlənə təkçə
Onunsa qədrini ər bilə - bilə
(Səjyb tale'ini lə'nətlər ilə)
Hər zaman kecinə syst, həjəçansьz
Qəzəbli, laqejd, qьsqanç və qansьz!
Mən bujam. Bunumu gөzləmişdiniz
O pak o alavlь bir dilək ilə,
Өjlə bir sadəlik və jyrək ilə,
Mənə o məktubu gөndərəndə siz?
Joqsa nəsibiniz bumudur jalnьz
Bunumu qьjmьşdьr sizə baxtьmьz?

*) Izdivaç allahь.